***Heydəri Vətənə bəxş etdi zaman***

***(Ulu öndər Heydər Əliyevin ad gününə)***

Sən göz açan zaman dünyaya inan,
Günəş öz  nurunu artırdı bir an,
Sənin gəlişinə sevindi cahan,
Sən oldun minlərlə ürəyə mehman.
Dünyaya göz açdı dahi bir insan,
Heydəri Vətənə bəxş etdi zaman.

Qəlbində dil açdı min arzu-dilək,
Sənin əməllərin dünyaya bəzək,
Qönçə arzuların açdı gül-çiçək,
Səni xatırladı hər vuran ürək.
Dünyaya göz açdı dahi bir insan,
Heydəri Vətənə bəxş etdi zaman.

Gözündə məhəbbət, sözündə hikmət,
Biz səndən öyrəndik hünər, dəyanət,
Bizə mərdanəlik qoydun əmanət,
Tapdı öz yerini haqq-ədalət.
Dünyaya göz açdı dahi bir insan,
Heydəri Vətənə bəxş etdi zaman.

Sədd çəkdi araya acı ruzigar,
Səni görmək üçün çəkdi intizar,
Ürəyində həsrət, dildə iftixar,
Sənə salam dedi şair Şəhriyar.
Dünyaya göz açdı dahi bir insan,
Heydəri Vətənə bəxş etdi zaman.

Millətlər adına edir ehtiram,
Xalqın ürəyində yaratdın inam,
Ad günün baharda bir yeni bayram,
Adını şərəflə yaşadır İlham!
Dünyaya göz açdı dahi bir insan,
Heydəri Vətənə bəxş etdi zaman.

***Gülarə Munis***

***Savalan. – 2008. – 6 may.***